Moskvada erməni həkimin qəsdlə öldürdüyü məşhur generalımız

BAKININ XİLASKARI Məmməd Bağır Hadı oğlu Bağırov (1901 - 1946)

(İxtisarla)

Azərbaycanın üç min ildən artıq dövlətçilik tarixində adları fəxrlə çəkilən görkəmli şəxsiyyətlər çox olmuşdur. Sovet hakimiyyəti illərində yeridilən ayrı-seçkilik siyasətinə baxmayaraq, öz bacarığı, savadı və qətiyyəti sayəsində general rütbəsinə yüksəlmiş Azərbaycanın qeyrətli oğulları da belə şəxsiyyətlərdəndir... Belə şəxsiyyətlərdən biri general-mayor Məmməd Bağır Hadı oğlu Bağırovdur ...

Böyük Vətən Müharibəsinə aid bəzi yazılarda və veb saytlarda müharibədə qəhrəmanlıqlar göstərmiş digər generallarla yanaşı, Məmməd Bağır Bağırovun bərəsinda yalnız aşağıdakı abzas verilmişdir: ***"1944-cü ilin iyul ayından Pribaltikada və digər cəbhələrdə fəal iştirak edən 77-ci diviziyanın yüzlərlə əsgər və zabiti orden və medallarla təltif edildi, 8 döyüşçü Sovet İttifaqı Qəhrəmanı adını aldı. Döyüş əməliyyatlarına Krımdan başlamış 77-ci Simferopol dağ-atıcı Azərbaycan milli diviziyası 11000 kilometrə yaxın məsafəni qət edərək Berlinə qədər getdi. Diviziyanın döyüş yollarında Heybət Heybətov, Tərlan Əliyarbəyov, Mahmud Əbilov, Məmmədbağır Bağırov, Hacıbaba Zeynalov, Hüseyn Məmmədov kimi generallar yetişmiş və onların hər biri böyük sərkərdəlik məharəti göstərmişlər"*** ...

Generalın həyat və fəaliyyətinin tədqiqində onun özü tərəfindən yazdığı tərcümeyihalı mühüm əhəmiyyət kəsb edir. Həmin sənədə görə Məmməd Bağır Hadı oğlu Bağırov 1901- ci ildə Bakı şəhərində qulluqçu ailəsində anadan olub. 1910-1915-ci illərdə ikinci rus-tatar məktəbində oxumuş, məktəbi bitirdikdən sonra Bakı Ali Məktəbinin birinci kursuna daxil olmuş və 1918-ci ilə qədər orada təhsil almışdır. Maddi imkanları olmadığına görə 1918-ci ildə üçüncü kursdan təhsilini yarımçıq qoymuş, çalışaraq ailəsinə kömək etmişdir.

Azərbaycan Xalq Cumhuriyyəti dövründə müxtəlif vəzifələrdə çalışmışdır. 1918-1919-cu illərdə Bakı şəhəri Evlər İdarəsinin katibi, daha sonra sədri olmuşdur. 1919-cu ildə Səhiyyə Nazirliyində kargüzar kimi fəaliyyət göstərmişdir.

M.B.Bağırov 1920-ci ilin sentyabr ayının 12-də Bakı Hərbi Məktəbinə daxil olmuş, istedadlı və cəsur müdavim kimi qısa müddətdə hərbi məktəb kollektivinin hörmətini qazanmışdır. Bakı Hərbi Məktəbini yüksək göstəricilərlə bitirdiyinə görə 07 noyabr 1921-ci il tarixində Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi tərəfindən şəxsi saatla təltif olunmuşdur.

Bakı Hərbi Məktəbini bitirdikdən sonra I Atıcı alayına vzvod komandiri təyin olunmuş və 1921-1925-ci illərdə I Atıcı alayın müxtəlif hissələrində vzvod komandiri, rota komandirinin köməkçisi vəzifələrində işləmişdir.

1925-1926-cı illərdə Leninqrada Mühəndis Qoşunları Komandirləri Məktəbinin təkmilləşdirmə kursuna ezam olunmuş və bu kursu müvəffəqiyyətlə başa vurduqdan sonra I Atıcı alayının VII rotasına komandir təyin olunmuşdur.

1926-1929-cu illərdə Azərbaycan Milli Diviziyasının mina axtaran rotasında vzvod komandiri kimi fəaliyyət göstərmiş, bu dövrdə müxtəlif hərbi hissələr üçün mina axtaranlarını hazırlanmasına rəhbərlik etmişdir.

1929-cu ildə Mina Axtaran Rota Məktəbinin rəisi təyin olunmuş və 1932-ci ilə kimi bu vəzifədə çalışmışdır. Böyük istedad və bacarığına görə 1932-ci ildə Azərbaycan Diviziyasının ayrıca mina axtaran rotasının komandiri vəzifəsinə irəli çəkilmiş və 1937-ci ilə kimi bu vəzifədə çalışmışdır. 1937-ci ilin avqustunda Zaqafqaziya Hərbi Dairəsi komandanın əmri ilə 77 Azərbaycan Milli Dviziyasının Mühəndis Xidmətinin rəisi olmuşdur.

Məmməd Bağır Bağırov 1940-cı ilin aprelində Hava Hücumundan Müdafiə hissəsinin III Korpusunun Mühəndis Xidmətinin rəisi, 1941-ci ilin aprelində Bakı şəhəri Hava Hücumundan Müdafiə qoşununun komandanı təyin olunmuşdur.

Dövlət Müdafiə Komitəsinin 05 aprel 1942-ci il qərarı ilə Bakı Hava Hücumundan Müdafiə Korpusunun bazası əsasında 1942-ci il mayın əvvəllərində Bakı Hava Hücumundan Müdafiə Ordusu yaradıldı. Alman kəşfiyyat təyyarələrinin aramsız uçuşlar etdiyi may-oktyabr 1942-ci il tarixində onun tərkibinə 8 qırıcı aviasiya korpusu, 7 zenit artilleriya alayı, 1 zenit pulemyot alayı, 1 projektor alayı, aerostat manəe alayı və digər hərbi hissələri daxil idi ...

1985-ci ilin avqustunda AFR-inŞtutqart şəhərində keçirilmiş tarix elmlərinin XVI Beynəlxalq Konqresində SSRİ-nin dünya əleyhinə faşist Almaniyası ilə sövdələşməkdə ittiham olunması problemə münasibətin kökündən dəyişməsinə, müharibəyə aid yeni faktların üzə çıxmasına səbəb oldu.

Bakı neft rayonu üçün İkinci Dünya müharibəsinin əvvəllərində Fransa və İngiltərə tərəfindən yaranan təhlükəni aydın dərk etmək üçün "Hücum etməmək haqqında" (23 avqust 1939-cu il) və "Dostluq və sərhədlər haqqında" (28 sentyabr 1939-cu il) sovet-alman müqavilələrinə xüsusi diqqət verilməsinə ehtiyac var. SSRİ ilə faşist Almaniyası arasında 23 avqust 1939-cu il ildə bağlanmış sazişin uzun müddət gizli saxlanmış maddələrinə görə Bakı neftinin faşist Almaniyasına verilməsi nəzərdə tutulurdu ki, bu da Fransa və İngiltərənin mənafelərinə uyğun deyildi.

Son dövrlər mətbuatda sovet tarixşünaslığında öz əksini tapmayan, yuxarıda adı çəkilən sovet-alman müqavilələri vasitəsilə iki dövlətin yaxınlaşmasından Bakı neft rayonu üçün yaranmış təhlükə haqqında son illər bir sıra məqalələr yazılıb. Bu məqalələrdə generalın adı çəkilməsə də, faktlar Bakının müdafiəsinə rəhbərlik etmiş Məmməd Bağır Bağırovun necə mürəkkəb və çətin şəraitdə işlədiyini bir daha sübut edir ...

SSRİ Xalq Komissarları Sovetinin 05 may 1942-ci il tarixli gizli iclasında Alman təyyarəsinin Bakıya uçuşu məsələsi müzakirə edilmiş və qərar qəbul olunmuşdu ki, şəhər əhalisi hava hücumundan müdafiə üçün yaxşı hazırlanmamışdır. 1942-ci ilin 23 iyununda İ.Stalinin yanında Bakının müdafiəsi məsələsi müzakirə olundu və onun göstərişilə 58-ci ordu və Birləşmiş Süvari Korpusu İrandan və Orta Asiyadan (həmin ilin 28 avqustunda) bu regiona gətirildi. 1942-ci ilin 16 sentyabrında SSRİ Dövlət Müdafiə Komitəsi Bakının müdafiəsi üçün xüsusi qərar qəbul etdi. Sentyabrın 24-də Zaqafqaziyada hərbi vəziyyət elan olundu. Qafqazın müdafiəsinə yuxarıda göstərilən Şimali Qafqaz və Zaqafqaziya cəbhələrindən əlavə Qara dəniz donanması, Xəzər və Azov dənizləri hərbi donanmaları da cəlb edilmişdi. Qafqaz uğrunda 422 gün davam edən bu döyüşlər zamanı Almaniya faşist ordusunun təyyarələri Zaqafqaziya istiqamətinə 7493 uçuş təşkil etmişdi. Bu təyyarələrdən 74-ü Bakı istiqaməti üzərinə hücuma keçmişdir ki, bunlardan da yalnız 7-si Bakı səmasına çata bilmişdi. Bu kimi faktlar general M.B.Bağırovun gərgin və şərəfli fəaliyyətinin üzərinə işıq salır.

Gənc generalın müəmmalı ölümü

Böyük Vətən Müharibəsinin sonlarına yaxın və müharibə qurtardıqdan sonra qələbənin qazanılmasında böyük əməyi olmuş azərbaycanlı generallara, görkəmli şəxsiyyətlərə münasibət dəyişməyə başlamışdır. Faktlar sübut edir ki, azərbaycanlı hərbiçilərin əksəriyyəti sovet rəhbərliyinə müharibənin gərgin və çətin günlərində lazım olsa da, sonradan onlara qarşı əvvəllər yeridilmiş ənənəvi ayrı-seçkilik siyasəti davam etmişdir. Müharibədən sonra isə onların bir hissəsi repressiyaya məruz qalmış, bir hissəsi isə müəmmalı şəkildə vəfat etmişdir. General Həzi Aslanovun ölümü ilə bağlı yeni faktlar, generalmayor Əbdülqasım Əziminin (1903-1947) 1947-ci ildə güllələnməsi, müharibə zamanı üç dəfə ağır yaralanmış, 3 orden və medallarla təltif olunmuş Gəray Vəlibəyovun 1947-ci ilin iyul ayında M.V.Frunze adına Moskva Hərbi Akademiyasını bitirməsi və polkovnik rütbəsi alması ilə əlaqədar tədbirdən sonra məzunlarla Moskva çayında çimərkən faciəli surətdə həlak olması və digər hadisələr buna misal ola bilər.

Müharibədən sonra Məmməd Bağır Bağırovun səhhətində ciddi problemlər olmasa da, Moskvada adi tibbi müayinədən sonra vəziyyətinin ağırlaşmağa başlaması, sonradan sağalmaz xəstəliyə düçar olması ona qarşı sui-qəsd ediləsi ehtimalını ortaya çıxarır.

Doğmalarının bildirdiyinə görə, generalı Moskada müalicə edən həkimin milliyyətcə erməni olması, geri qayıtdıqdan sonra səhhətində ciddi problemlərin baş verməsi və ağ ciyərində xərçəng xəstəliyi diaqnozu ilə tezliklə vəfat etməsi sübut edir ki, onun ölümü təsadüfi olmamış, qabaqcadan təşkil olunmuşdur.

Qeyd etmək lazımdır ki, Azərbaycanın görkəmli ictimai-siyasi xadimi N.Nərimanov 1925-ci ildə Moskvada müəmmalı şəkildə vəfat edərkən də ona eyni diaqnozu qoymuşdular.

General Məmməd Bağır Bağırovun bu cür münasibətin bir səbəbi də, fikrimizcə, müharibədən sonra hərbi hissələrin, o cümlədən Hava Hücumundan Müdafiə qoşunlarında kəskin ixtisarların aparılması idi. Məsələn, SSRİ Hava Hücumundan Müdafiə qoşunlarında xidmət edənlərin sayı müharibənin sonunda 637 min nəfər idisə, ixtisarlar nəticəsində 1946-cı ilin oktyabrında 147287 nəfərə qədər azalmışdır.

General Məmməd Bağır Bağırova müharibədən dərhal sonra münasibətin yüz səksən dərəcə dəyişmiş, ona qarşı laqeydlik, diqqətsizlik özünü büruzə verməyə başlamışdır. Bunu generalın öz dostu Qəzənfərə yazdığı məktub da sübut edir. Məktubda deyilir: "Mənim 44 yaşım var, onun 26 ilini fasiləsiz olaraq hərbi qulluqda olmuşam. Bu dövrdə Vətənə xidmət edərkən öz xalqımı və vətənimi qorumuşam... ...çoxları rahat oxumuş, həkim, mühəndis, professor olmuşdur. Mənə də gəlir ki, hərbi qulluqçu olmasaydım mən də onların biri olardım. Onu demək istəyirəm ki, bu yoldaşların sakit həyat sürməsində, oxumasında, təhsil almasında mənim də müəyyən rolum var... Bakını möhkəmləndirmək və xalqımın əməyini qorumaq üçün mən öz qabiliyyətimi, təcrübəmi və əsəblərimi əsirgəmədən bütün enerjimi sərf etmişəm...1941-ci ili yadına sal, ya da sənədləri qaldır bax, gör mənə qədər Bakı şəhər yerli hava hücumundan müdafiə nə vəziyyətdə idi. Heç kəsə sirr deyil ki, HHM bizim respublika üçün ləkə idi. Bizdə çox qısa zamanda Azərbaycan Mərkəzi Komitəsi və Nazirlər Sovetinin köməyilə çox yaxşı kollektiv yarandı. 2-3 ay ərzində alçaq alman faşistlərinin ölkəmizə hücumuna qədər müasir elmin və texnikanın tələblərinə cavab verən Yerli Hava Hücumundan Müdafiə yenidən yaradıldı... Bu da bir çox yoldaşların SSRİ tərəfindən mükafatlandırılması ilə öz nəticəsini göstərdi. Bakı şəhər Yerli Hava Hücumundan Müdafiə ittifaqın başqa şəhərlərilə müqayisədə nümunəvidir, hətta bu sahənin akademiyasıdır."

Maraqlıdır ki, Bakı Hava Hücumundan Müdafiə qoşunlarına aid nəşr olunmuş elmi ədəbiyyatda komandan kimi artilleriya general-mayoru P.M.Beskrovonov (aprel 1942-fevral 1945), artilleriya general-leytenantı N.V.Markovun (fevral 1945-müharibənin axırı) (27) adı çəkilsə də general-mayor Məmməd Bağır Hadı oğlu Bağırovun adına rast gəlinmir. Sonrakı illərdə Bakı Hava Hücumundan Müdafiə qoşunlarına rəhbərlik etmiş şəxslərin rus millətindən, konkret olaraq aviasiya marşalı K.A.Verşinin (1954-1956), ordu generalı V.D.İvanov (1956-1959), ordu generalı A.F.Şeqlov (1959-1966), general-polkovnik F.A.Olifirov (1966-1973), general-polkovnik A.U.Konstantinov (1973-1980) olması müharibədən sonra azərbaycanlı hərbçilərə qarşı yeridilən ayrıseçkilik siyasətinin nəticəsi idi.

Bağırzadə Rafiq Məmmədbağır oğlunun atası haqqında xatirələrindən: "...anamın dediyinə görə, Moskvada atamın birinci və sonrakı həkimi də erməni olub. Anam deyirdi ki, atamın birinci dəfə Moskvaya sağlam gedib orada xəstələnməsi, xəstəxanada yatması və oradan qayıdandan bir müddət sonra vəziyyətinin pislaşməsi çox müəmmalı olub. Deyirdi xalq arasında belə bir söhbət gəzirmiş ki, Sovet İttifaqını müharibədən qələbə ilə çıxaran əsas şəxsiyyətlərin siyahısında atamın da adı varmış. Müharibə vaxtı Hitlerin gizli kəşfiyyat əmrinə görə bu insanlar aradan götürülməli imiş. Anam həmişə şübhə içində danışırdı ki, bəlkə də erməni həkimin əli ilə Moskvada atama iynə vurublar..."

General-mayor Məmməd Bağır Bağırov 1946-cı ilin dekabrin 26-da vəfat etmiş və bundan sonra demək olar ki, tamamilə unudulmuşdur. Yalnız ildə bir dəfə qələbə bayramı münasibətilə, digər müharibə veteranlarına olduğu kimi, onun da ailəsinə təbrik teleqramı göndərilirdi. Belə bir təbrik teleqramı 1975-ci ilin may ayında Böyük Vətən Müharibəsində qələbənin 30-cu ildönümü münasibətilə o vaxt Azərbaycan KP MK-nın birinci katibi H.Əliyev tərəfindən generalın həyat yoldaşına göndərilmişdir.

General-mayor Məmməd Bağır Bağırovun oğlu və nəvələri hazırda Bakıda yaşayır. Generalın nəvəsi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Minaxanım Əsədli Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosentidir. Onun qızı, Bakı Dövlət Universitetinin İqtisadi Kibernetika İxtisası üzrə təhsil alan tələbəsi Mənsurə Əsədli generalın həyat yoldaşı Mənsurə xanımın adını daşıyır. Oğlu Etibar Əsədli Bakı Musiqi Akademiyasının bəstəkarlıq şöbəsinin tələbəsidir. Digər nəvə sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Vüsal Bağırzadə Şimali Kipr Türk Cumhuriyyətində Beynəlxalq Kipr Universitetində dərs deyir. Onun oğlu, generalın adını daşıyan Məmməd Bağır Bağırzadə Şimali Kipr Türk Respublikasında "20 Temmuz Fen Lisesi"ndə təhsilini davam etdirir. Qızı Rasudana Bağırzadə İngilisdilli "Türk Maarif Koleci"ndə təhsilini davam etdirir.

General-mayor Məmməd Bağır Bağırovun fəaliyyətinin tədqiqi aktual olaraq qalır.

Tural Qaffarov